*Ç.Əkbər. Musa bin Məhəmməd bin Mahmud ər - Rumi Qazızadə əsərlərinin Bakı əlyazma nüsxələri // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.198-203.*

UOT: 61:615:616-08

**Çinarə Əkbər**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*email: cinara.nacafova@mail.ru*

# MUSA BİN MƏHƏMMƏD BİN MAHMUD ƏR-RUMİ QAZIZADƏ ƏSƏRLƏRİNİN ƏLYAZMALARININ BAKI NÜSXƏLƏRİ

**Xülasə**

Kəlam və təsəvvüf elmləri baxımından dövrünün məşhur alimlərindən biri də Musa bin Məhəmməd bin Mahmud ər-Rumi Qazızadədir. Üləma sinfindən olan atasının ölümündən sonra babası Qazı Mahmud Çələbi tərəfindən tərbiyə olunduğu üçün Qazızadə kimi məhşur olmuşdu. Bu ləqəblə tanınmazdan əvvəl Musa Paşa və ya Musa Çələbi kimi tanınırdı. O, babası və I Murad dövrünün məşhur alimi Molla Fənaridən dini və əqli elmlər öyrənmişdir. Sonra isə babasının şagirdlərindən Bədrəddin Simavi ilə birlikdə Konyaya gedərək Münəccim Feyzullahdan astronomiya dərsləri almışdır. Anadoludakı müəllimlərindən biri də Səfərşah ər-Rumi olmuşdur. Ailəsinin qarşı çıxmasına baxmayaraq,1400-cü ilin əvvəllərində müəllimi Molla Fənarinin təsiri ilə Mavərənnəhr və Xorasan bölgəsinə getmiş və 1411-ci ildə Səmərqənddə dövrünün ən məşhur alimlərindən olan Seyid Şərif əl-Cürcaninin dərslərində iştirak etmişdir. Lakin məlumdur ki, sonralar müəllimi ilə fikir ayrılığı yaranmış, hər məsələyə bir riyaziyyatçı kimi baxdığı üçün kursu yarımçıq qoymuş və məşhur "Şərh əl-Məvahid" əsərində onun müxtəlif fikirlərini tənqid etmişdir.

Səmərqənddə Uluğ bəylə tanış olan Qazızadə qısa zamanda hökmdarın sevgisini qazanmışdır. Daha sonra isə Səmərqənd Rəsədxanasının rəhbəri vəzifəsinə gətirilmişdi. Alimin dəqiq elmlərə marağı daha çox olmuşdur. Səmərqənddəki fəaliyyətləri haqqında o qədər də məlumat yoxdur. Qazızadənin ölüm tarixi dəqiq bilinməsə də bəzi mənbələrdə h.814/m.1412 ci il göstərilir [2, s. 98]. Ancaq onun tələbəsi Fətullah əş-Şirvaninin verdiyi məlumatda Qazızadənin h.844/m.1440 il tarixində həyatda olması göstərilir [4].

***Açar sözlər:*** *Qazızadə, alim, əsər, əlyazma nüsxələri, astronomiya*

**Giriş**

*Qazızadə riyaziyyatla bağlı "Şərh əl - əşkal ət-təsis"i və astronomiyaya dair "Şərh əl - müləxxəs fi elm əl-heyə" adlı əsərlərin müəllifidir. Bu əsərlər Osmanlı mədrəsələrində dərs vəsaiti kimi istifadə olunmuşdur. Əsasən riyaziyyatçı və astronom kimi tanınmış alim, həm əsərləriylə, həm də tələbələriylə Osmanlı elm həyatını zənginləşdirmişdir.*

*Qazızadənin ən mühüm astronomiya fəaliyyəti Səmərqənd Rəsədxanasındakı tədqiqatlarda iştirakıdır. Alim, Uluğ bəy zamanında Cəmşid əl-Kaşidən sonra Səmərqənd rəsədxanasında müşahidələrə və riyazi tədqiqatlara nəzarət edən əsas şəxslərdən biri olmuşdur.*

*"Şərh əl-əşkal ət-təsis" əsəri Qazızadənin astronomiya sahəsində yazdığı ən dəyərli əsərdir. Osmanlı mədrəsələrində dərs vəsaiti kimi istifadə edilən bu əsərin 300-dən çox əlyazma nüsxəsi dövrümüzə qədər gəlib çatmışdır. Əsərə Sinan Paşa, Muhyiddin Niksari, Molla Əhaveyn, Əbdüləli əl-Bircəndi, Əbdürrəhman b. Həsən əl-Cəbərti və Fəhrizadə əl-Mövsilinin yazıları başda olmaqla bir çox şərhlər yazılmışdır. Onların arasında Bircəndinin təfsiri çox məşhur olmuş və Osmanlı mədrəsələrində dərslik kimi istifadə edilmişdir. Qazızadənin təfsiri Fatih Sultan Məhmətin əmriylə Həmzə b. Hacı b. Süleyman tərəfindən fars dilinə tərcümə edilmişdir [2, s. 100].*

**Qazızadənin elmi – bədii irsi.**

*"Töḥfə ər-rəis fi şərhi əşkal ət-təsis"* əsəri Şəmsəddin Məhəmməd b. Əşrəf əs-Səmərqəndinin "Əşkal ət-təsis" adlı əsərinin şərhidir. Bu şərh h.815/m 1412-ci ildə yazılmış və Uluğ bəyə həsr olunmuşdur. Əsər daha çox "Şərhu əşkal ət-təsis" kimi tanınır. Nəzəri həndəsə baxımından əhəmiyyətli əsəri olan bu şərhində Qazızadə, bir çox məqamlarda Əşrəf əs - Səmərqəndidən fərqli bir yanaşma nümayiş etdirmiş və öz əsərində Nəsirəddin Tusinin "Təhrir əl-usul fi ilm əl-həndəsə" və Əsirəddin əl-Əbhərinin "İslah əl – Öklidis" əsərlərindən istifadə etmişdir. Qazızadənin "Şərhu əşkal ət-təsis" əsəri uzun illər Osmanlı mədrəsələrində həndəsə dərsliyi kimi istifadə olunmuşdur. Tac Səidi (Əbül-Fəth Məhəmməd b. Səid Hüseyni), Fəsihuddin Məhəmməd, Molla Çələbi (Məhəmməd b. Əli əl-Amidi), Şeyxülislam Bolulu Mustafa Əfəndi, Abdülbar b. Əbdülqadir əl-Feyyumi, Məhəmməd b. Yar Məhəmməd əl-Buxari və Məhəmməd b. Hüseyn əl-Əttar əl-Hələbi kimi bir çox tanınmış riyaziyyatçı alimlər tərəfindən bu əsərə şərhlər və təriflər yazılmış və bu əsərlər Osmanlı mədrəsələrində həndəsə elminin tədrisində istifadə edilmişdir. Həmçinin Qazızadənin bu şərhi III Sultan Səlimin əmri ilə 1794-cü ildə riyaziyyatçı Muğlalı Müftizadə Əbdürrəhim b. Yusif Məntəşəvi tərəfindən türk dilinə tərcümə edilmişdir [1, II c., s. 324].

*"Risalə fi istixraci cəybi dərəcə vahidə bi-əməlin müəssəsə ala qəvaidə hesabiyyə və həndəsiyyə ala ṭariqəti Qyasəddin əl-Kaşi"*. Cəmşid əl-Kaşinin qövsün sinusunun cəbri yolla hesabla üsuluna həsr etdiyi traktatının şərhidir. Bu əsər Qazızadənin elm sahəsində yazdığı ən orijinal əsər hesab olunur. Kaşinin tənliyə çevirərək həll etdiyi bu metodu Qazızadə əsərində daha sadə riyazi üsulla həll etmişdir.

*"Haşiyə alə təhriri üsul əl-*həndəsə". Katib Çələbinin verdiyi məlumata görə bu əsər Nəsirəddin Tusinin "Təhrir əl - üsul fi elm əl - həndəsə"əsərinə yazılmış haşiyədir.

***"Şərh əl – mülxxəs fi elm əl –* heyə" əsərinin əlyazma nüsxələrinin poleoqrafik təsviri.**

Qazızadənin astronomiyaya həsr etdiyi ən önəmli əsərlərindən biri və demək olar ki birincisi "Şərh əl – müləxxəs əl - heyə" dir. Bu əsər Çəğmininin "əl-Müləxxəs fil–heyə" əsərinin şərhidir. Qazızadə bu əsərini h.814/m.1412-ci ildə yazmışdır. Osmanlı mədrəsələrndə dərs vəsaiti kimi istifadə olunan bu şərhin günümüzədək 300-ə yaxın əlyazma nüsxəsi gəlib çatmışdır ki, bu nüsxələrdən bir çoxu AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İsntitutunda qorunub saxlanmaqdadır. Onlardan bir neçəsi aşağıdakılardır:

1) **B-2715.** Bu şifr altında saxlanılan əlyazma nüsxəsi h.1094 /m.1682-ci ilin Şəvval ayında Mahmud bin Məhəmməd Qəznəvi tərəfindən Toqat şəhərində üzü köçürülmüşdür. Kağızı Avropa istehsallı sarımtıl vərəqlərdir. Vərəqlərin kənarlarında nəmişlik ləkələri görünür. Vərəqlər bir-birinə bağlı (birləşmiş) vəziyyətdədir. Əlyazma qara mürəkkəblə nəsx xətt ilə yazılmışdır. Orta əsr mətnşünaslığında istifadə olunan şərti işarələrin yazılışında və bəzi sözlərin altından çəkilmiş xətlərdə qırmızı mürəkkəbdən istifadə edilmişdir. Səhifələnmə Şərq üsulu ilə aparılıb. Əlyazmanın içərisindəki bəzi vərəqlərdə astronomiya ilə bağlı şəkillər vardır.

Əlyazmanın ümumi həcmi 127 vərəqdir. 127-ci vərəq yarımçıq cırılmış haldadır. Şərh əlyazmanın $1^b$-dən – $126^b$ səhifəsinə qədər olan vərəqləri əhatə edir. Əlyazmanın qapağı açıq qəhvəyi rəngdə kənarları və özəyi tünd qəhvəyi rəngdə olan dəridir. Alt qapağa açıq rəngli dərinin üzərindən parça yapışdırılmışdır. Ölçüsü: 20x14,5 sm-dir.

Əvvəli: ... الحمد لله الذى جعل الشمس ضياء والقمر نورا و بسط...

Sonu: ... و ثلثة اخماس وقيفة من دقائق الساعات علي مذهب التبائي...[4]

2) **B-1956.** Bu şifr altında qorunan əlyazma nüsxəsi Şərq istehsalı olan 2 növ kağıza yazılmışdır. Ağ rəngli parıltılı vərəqlərə və sarımtıl kənarları həm ləkələri olan vərəqlərə. Mətnin yazılışında qara mürəkkəbdən istifadə olunmuşdur. Xətti səliqəli nəsxdir. Bəzi ifadələrin altından qırmızı mürəkkəblə düz xətt çəkilib. Şərh əlyazmanın $1^a$-$130^b$ vərəqlərini əhatə edir. Birinci vərəq cildə yapışmış formadadır. Ümumiyyətlə, əlyazma nüsxəsinin ümumi həcmi 131 vərəqdir. Sonuncu vərəq cırıq-cırıq, didilmiş formadadır. Mətnin kənarlarında çoxlu izah və qeydlər vardır. Bəzi vərəqlərdə astronomiyaya aid şəkillər çəkilmişdir. Səhifələnmə Şərq üsulu ilə aparılıb.

Sonuncu vərəq didilməsi səbəbindən katibi, tarixi, köçürülmə yeri haqqında məlumat yoxdur.

Əlyazmanın cildi açıq qəhvəyi rəngli dəridir. Özəyi tünd qəhvəyi rəngli meşindir. Ölçüsü: 20x15 sm-dır.

Əvvəli: ... الحمد لله الذى جعل الشمس ضياء والقمر نورا و بسط...

Sonu: ...و ثلثة اخماس وقيفة من دقائق الساعات علي مذهب التبائي [5]

3) **B-3863.** Bu şifr altında saxlanılan "Şərh əl-müləxxəs əl-heyə" əsərinin əlyazma nüsxəsi $1^b$-$67^b$-yə qədər olan vərəqləri əhatə edir. Əlyazmanın kağızı Avropa olan parıltılı sarı vərəqlərdir. Mətn əsasən qara mürəkkəblə nəsx xətti ilə yazılmışdır. Bəzi sözlərin

yazılışında, bəzi ifadələrin altından çəkilmiş xətlərdə qırmızı mürəkkəbdən istifadə olunmuşdur. Vərəqlərin bəzilərində astronomiyaya aid şəkillər çəkilib. Səhifələnmə Şərq üsulu ilə aparılıb.

Əlyazma cildsizdir. Amma əlyazmanın içərisində əlyazmadan ayrılmış basma medalyonlu tünd qəhvəyi rəngli dəridən ibarət 1 üz qapaq vardır. Bundan əlyazmanın əvvəlki üzünün məhz belə olduğu aydınlaşır. Əlyazmanın ümumi həcmi 76 vərəqdir. Ölçüsü:21x16 sm-dir.

Katib yazılmayıb. Köçürülmə yeri yoxdur. Köçürülmə ili 1793 olaraq qeyd olunmuşdur.

Əvvəli: ... الحمد لله الذى جعل الشمس ضياء والقمر نورا و بسط...

Sonu: ...و ثلثة اخماس وقيفة من دقائق الساعات علي مذهب التبائي [6]

4) **B-2046.** Bu şifr altında qorunan əlyazma nüsxəsi əsasən qara mürəkkəblə səliqəli nəsx xətti ilə yazılmışdır. Bəzi ifadələrin altından qırmızı mürəkkəblə xətt çəkilib. Vərəqlərin bəzilərində qara mürəkkəblə yazılmış izahlar və şəkillər mövcuddur. Səhifələnmə Şərq üsulu ilə aparılıb. Kağızı Şərq istehsalı olan ahərli ağ rəngli vərəqlərdir. Əlyazmanın ümumi həcmi 112 vərəqdir. Mətn $1^b$-dən başlayır $112^a$ vərəqində bitir.

Cildi: Tünd qəhvəyi rəngli basma medalyonu olan kənarları naxışlı dəridir. Ölçüsü: 21,5x13 sm-dir. Əlyazmanın sonunda katibi, tarixi və köçürülmə yeri haqqında məlumat yoxdur.

Əvvəli: ... الحمد لله الذى جعل الشمس ضياء والقمر نورا و بسط...

Sonu: ...و ثلثة اخماس وقيفة من دقائق الساعات علي مذهب التبائي [7]

**B-1921.** Qazızadənin bu şifr altında qorunan "Şərh əl – müləxxəs əl - heyə" əsərinin əlyazma nüsxəsinin kağızı Avropa istehsalı olan açıq göy rəngli vərəqlərdir. Əsasən qara mürəkkəblə nəstəliq elementli nəsxlə yazılmışdır. Bəzi ifadələrin və orta əsr mətnşünaslığında istifadə olunan şərti işarələrin yazılışında qırmızı mürəkkəbdən də istifadə olunub. Əlyazmanın bəzi vərəqlərində yaşıl, sarı, qırmızı, qara mürəkkəbdən istifadə olunaraq astronomiyaya aid şəkillər çəkilmişdir. Əlyazmanın kənarlarında izah və qeydlər mövcuddur. Səhifələnmə Şərq üsulu ilə aparılıb.

Əlyazmanın cildi açıq qəhvəyi rəngli kartondur. Lakin kartonun üst və alt qapaqlarında üzdən və içdən yazılar yazılmışdır. Özəyi tünd qəhvəyi rəngdədir. Özəyinin bir hissəsi cilddən ayrılmış formadadır. Ölçüsü 23x17,5 sm.

Ümumi həcm 123 vərəqdir. Əvvəldən 3 vərəq yazıldıqdan sonra 2 vərəq boş buraxılıb. Şərh $6^b$ dən başlayır $119^a$-ya qədər olan vərəqləri əhatə edir. 122-yə qədər olan vərəqlər yazılmayaraq yenidən boş buraxılmış $123^a$ vərəqində əsərin kolofonu verilmişdir.

Katibi: Qasım Əfəndi Qəbələli.

Köçürülmə ili kimi h 1224/m-1809 verilmişdir

Əvvəli: ... الحمد لله الذى جعل الشمس ضياء والقمر نورا و بسط...

Sonu: ...و ثلثة اخماس وقيفة من دقائق الساعات علي مذهب التبائي [8]

**Nəticə**

*Azərbaycan Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazma kitabları yalnız öz məzmunu ilə deyil, eyni zamanda sənət abidəsi kimi də çox dəyərlidir. Orta əsrlərin kitab tarixi və kitab sənətini, rəssamlıq məktəblərini və təsviri incəsənəti, eləcə də başqa sahələri öyrənmək baxımından əlyazma kitabları əsas mənbədir. Onların bədii tərtibatı, miniatürləri, kalliqrafik xətt nümunələri, incə naxış və ornamentləri, böyük estetik zövqlə hazırlanmış bədii cildləri və s. keçmiş yüzilliklərin incəsənəti ilə ayrılmaz şəkildə bağlı olan başlıca faktorlardır. Özündə kompleks bilikləri birləşdirən əlyazma kitabları bu və ya digər xalqın maddi-mədəniyyətinin əvəzsiz abidələri sayılır [3, s. 4].*

*Qazızadənin Azərbaycanda qorunan əsərlərinin əlyazma nüsxələrinin elmi təsvirindən sonra belə nəticəyə gəldik ki, onun əsərləri Osmanlı dövlətinin bir çox bölgələrdə olduğu kimi, Azərbaycanda da mədrəsələr üçün əsas tədris vəsaiti olmuşdur. Onun Azərbaycanda qorunan əlyazma əsərlərinin tədqiqi elm və mədəniyyət baxımından mühüm yer tutur.*

**Ədəbiyyat siyahısı:**


1. Bursalı, M. T. Osmanlı Müellifləri / M.T. Bursalı. - İstanbul: Yaylacık, - 1333. I cild - 407 s., II cild, -385 s.

2. Faziloğlu,İ. Kadızade i - Rumi // TDV. İslam Ansiklopedisi (İslam alemi Tarih, Coğrafiya, Etnoqrafiya ve Biyografya Luğati), 24.cilt, İstanbul: - Milli Eğitim Basımevi, - 2001. -98 - 100.

3. Şərifli, K. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə kitabxanasının kataloqu, Icild, -Bakı: - Nurlan, - 2009. – 425s.

4. مصطفى بن عبدالله الشهير بحاجى خليفة و بكاتب چلبى كشف الظنون عن اسامى الكتب والفنون'جلد الجلد الاول' ٤٨+ ٩٣٨ الجلد الثانى ' ٢٠٥٦ ص. استنبول ١٩٤٣/ ١٢'١٩٣١

5. B - 2717 "شرح على الملخص الهئية" /موسى بن محمد محمود الرمى قاضى زاده

6 B -1956 "شرح على الملخص الهئية" / موسى بن محمد محمود الرمى قاضى زاده

7. B - 3863 "شرح على الملخص الهئية" / موسى بن محمد محمود الرمى قاضى زاده

8. B - 2046 "شرح على الملخص الهئية"/ موسى بن محمد محمود الرمى قاضى زاده

9. B -1921 "شرح على الملخص الهئية" / موسى بن محمد محمود الرمى قاضى زاده


**Chinara Akbar**

**Musa bin Muhammфd bin Mahmud ar - Rumi Kazizadep and Baku manuscripts of his works**

One of the famous scientists of his time from the point of view of the sciences of Kalam and Sufism is Musa bin Muhammad bin Mahmud ar-Rumi Kazizadeh. Kazizadeh is the author of the work on mathematics "Sharh al - ashkal at-tasis" and astronomy "Sharh al - mulahhas fi elm al-heya". These works were used as teaching aids in Ottoman madrassas.

The study of his handwritten works preserved in Azerbaijan occupies an important place from the point of view of science and culture.

One of the most significant and first works of Kazizadeh is "Sharh al - mulahhas al-heya", which is dedicated to astronomy. This work is a commentary on Chagmini's «al-Mulahhas fil-heya». Kazizadeh wrote this work in 814/1412. About 300 handwritten copies of this commentary, which was used as a textbook in the Ottoman madrassas, have survived to this day. Many of them are kept at the Institute of Manuscripts named after Muhammad Fizuli ANAS.

***Key words:*** *Kazizadeh, scientist, work, handwritten copies, astronomy*

Filologiya üzrə elmlər doktoru, dosent
**Nailə Mustafayeva** tərəfindən çapa tövsiyə olunmuşdur.